

*Rəfiqə ABBASOVA*

**BİR AZ KÖNLÜNÜ AL**

Ürəyimi göynədir
Bir xatirə qırıntısı.
Ayın gümüş qaşığı
Ac bir it ulartısı…

Nə bilim, yolunda bitən,
Yaşıl ah göynərtisi.
Uşaq evində gecələr
Qovrulan körpə səsi.

Xatirələr can evimdə,
Hıçqırığı qırıq-qırıq.
Ömür bəxtdən gileylənir,
Üzü, gözü cırıq-cırıq.

Çiçək açır otağımda
Taleyimin dərdi, qəmi.
Yad sularda itib, batar,
Öz yolunu bilən gəmi.

Heç olmasa sən yolunu
Viran olmuş qəlbimdən sal.
Ürək heçə meyil salıb,
Çalış, bir az könlünü al.

## DOĞULUR XOŞBƏXTLİYİN

Ocaq çatıb, başında
Xatirələr çözəsən.
Ağlından keçənləri
Söyləyəsən közə sən.

Düşə bir qığılcımı,
Alışdıra canını.
Alnındakı soyuq tər
Lap dondura qanını.

Ürəyindən su içib,
Boy ata "hə" dizəcən.
Nəbzin qəribə atar,
Uzaq başı sözəcən.

Düz baxmağa utanıb,
Qaçırasan gözünü.
Gülümsəyə suallar,
İtirəsən özünü.

Bir romantik gecəni
Qaranlığa sürümə.
Sevginin taxt-tacını
"Yox" sözünə bürümə.

Nə şər demə, nə xeyir,
Nə də gözlərin dolsun.
Doğulur xoşbəxtliyin,
Gözlərin aydın olsun.

***

Bəhanələr çoxalır
Ayrıcında yolların.

Gedim, qalım yenə də
Çarpazında qolların.

Çətir olub göy üzü,
Yaş süzülür üzəcən.
Gözlər heyfini alır
Qapqara gecələrdən.

Daha nə sözüm qalıb,
Nə də ki, dözüm məndə.
Yolların açıq olsun,
Cığırın, izin məndə.

Adımdan bircə hərif,
Oğurlayıb aparma.
Qoy dünyam bütöv qalsın,
İstəyimdən qoparma.

Hər qarışıq fikirdən
Qəfil bir arzu doğur.
Ümidin kif qoxusu
Onu yerində boğur.

Çıx get, dayanma, çıx get,
Bir azca tələs, tələs.
Fikrini qarışdırar
Yoxsa ağlayan vələs.

## İMKAN OLSA CAVAB YAZ

Tələsik keçib getmə,
Bir azca gözlə məni.
Bəs bu nə qaçhaqaçdı,
Aldatma sözlə məni.

Ayağına daş dəyər,
Təmizləyim yolunu.
Bu qeylü-qal içində,
Bağlama əl-qolumu.

Tələsmə belə, ömür,
İnsafın olsun bir az.
Nimdaş arzularıma
İmkan olsa cavab yaz.

Hardan keçib əlinə
Tapdığın qara kömür.
Cızmaqara etmisən,
Adını qoyub "ömür".

Heç olmasa sən gözlə,
Gəl dönmə yel atına.
Bəlkə məlhəm olasan,
Ürəyimin çatına.

Sözüm taxtından düşüb,
Dən yemirmi sərçələr.
Dağa, daşa çırpdığım
Ömür çətin dirçələr.

## UNUTMAĞA ÇALIŞIR

Çəkilib sanki göyə,
Rəngi sənin gözünün.
Bir udumluq xoşbəxtlik
Təbəssümü üzünün.

Bəd uğurlu ömrümü,
Daha nəylə aldadım?
Öyrədim unutmağı,
Xəyalında bal dadım.

Çör-çöpdən yuva olmaz,
Ha daşıyım otağa.
Yuva yaraşıq verər,
Üşüyən boz budağa.

Qayıtmaq istəyərdim
Uşaqlıq çağlarıma.

Düşən izlərim itib,
Qar yağıb dağlarıma.

Gah böyüyüb, kiçilib,
Kədərdən aşınmışam.
Neynirəm uşaqlığı,
Fikrimdən daşınmışam.

Sobadan xatirələr
Od götürüb alışır.
Daha beynim keçmişdən
Uşaq kimi sallaşır.

## SEVDANIN OCAQ YERİ

Yağış yağır dənizə,
Çatlayır dodaqların.
Damcıların səsindən
Tutulur qulaqların?

Sevdanın ocaq yeri
Buludlardan o yana.
Ürəyin dan üzünə
Ulduz-ulduz doğrana.

Təəssüfün içindən
Dönüb gəlir səhərin.
Qurtum-qurtum dadarsan
Acı sevgi zəhərin.

## KÖNÜL SƏNDƏN NƏ GİZLƏDİR

Yuxularım qurban gedib,
Nə deyim mən bu qədərə.
Ağ işığın həsrətində
Bürünüb zülmət kədərə.

Üzü göyə dayanmışam,
Verilən əmrə müntəzir.

Tanrı, hər şey agahdırsa,
Könül səndən nə gizlədir?

Hər gün bir az boy atıram,
Baş qoyuram buludlara.
Bu sirrlərin işığında
Kəsişmə nöqtəsi hara?

Ömür, bir qaynama, dayan,
Gödəlibdi onsuz ipin.
Vəfasız demərəm sənə,
Tapdığım yerlərdə itim.